***Prezident İlham Əliyev cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə hesabat dövründə görülən işləri təhlil edərkən, ötən üç ayın sosial-iqtisadi göstəricilərini diqqətə çatdıraraq, ölkəmizin bütün sahələrdə uğurlu inkişafının davamlı xarakter aldığını vurğuladı. Ölkə rəhbəri, eyni zamanda, Vətən müharibəsindən sonra düşməndən təmizlənən ərazilərdə bərpa-quruculuq layihələrinin icrasında müsbət nəticələr gerçəkləşdirildiyini, beynəlxalq müstəvidə yeni reallıqların qəbulu üçün önəmli addımlar atıldığını bildirdi.***



# Sosial-iqtisadi layihələr uğurla həyata keçirilir

Bütün bunlar isə deməyə əsas verir ki, müstəqil Azərbaycan bu gün inkişafının yeni mərhələsini yaşayır. Ölkədə milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin etmək üçün məqsədyönlü sosial-iqtisadi islahatlar həyata keçirilir. Bunun nəticəsində iqtisadiyyatın həcmi getdikcə böyüyür, infrastruktur yenilənir və güclənir, maliyyə imkanları genişlənir və nəhayət, Azərbaycan yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənir. Belə bir iqtisadi güc isə Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verir.

Belə bir şərait beynəlxalq ictimaiyyətin həm siyasi nöqteyi-nəzərdən postmünaqişə reallıqlarını qəbul etməsini şərtləndirir, həm də Azərbaycana olan diqqətini daha da artırır. Bu maraq böyük investisiya layihələrində də özünü qabarıq büruzə verir. Təkcə bu ilin üç ayında bərpaolunan enerji üzrə iki elektrik stansiyasının təməlinin qoyulması bunun bariz ifadəsidir.

Burada onu da qeyd edim ki, hesabat dövründə ölkə iqtisadiyyatının dinamik inkişafı sosial duruma da müsbət təsir göstərib. Belə ki, iqtisadi böyümə cari ilin əvvəlində minimum əməkhaqqının və eləcə də dövlət sektorunda çalışanların maaşların artımı ölkə üzrə orta aylıq əməkhaqqı məbləğinə təsirsiz ötüşməyib. Cari ilin yanvar-fevral aylarında orta aylıq əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11 faiz artaraq 768,3 manat olub. Muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 3,6 min nəfər və ya 0,2 faiz artaraq 1682,1 min nəfər təşkil edib ki, onlardan 902,5 min nəfəri iqtisadiyyatın dövlət, 779,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Bu ilin ilk 3 ayında ixrac idxalı 5,1 milyard ABŞ dollarını üstələyib və bu da xarici ticarət balansında böyük müsbət saldonun yaranmasına gətirib çıxarıb.

Sözügedən müddətdə dünya bazarında müşahidə edilən qiymət artımları Azərbaycan istehlak bazarına da təsirsiz ötüşməyib. Bu ilin yanvar-mart aylarında istehlak qiymətləri indeksi əvvəlki ilin uyğun dövrünə nisbətən 112,2 faiz, o cümlədən, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 117 faiz, qeyri-ərzaq məhsulları üzrə 106,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 110,1 faiz təşkil edib.

Cari ilin mart ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,1 faiz, əvvəlki ilin mart ayına nisbətən 112,1 faiz təşkil edib. Bununla yanaşı, ötən rübdə inflyasiyaya qarşı mübarizə gücləndirilib. Sahibkarlar üçün yeni təşviq mexanizmləri təklif olunub.

Bütövlükdə, bu ilin ilk rübünün nəticələri Azərbaycan iqtisadiyyatında artım tendensiyasının davam etdiyindən xəbər verir. Ötən il ərzində ÜDM 5,6 faiz böyümüşdürsə, 2022-ci ilin ilk 3 ayında artım 6,8 faizədək yüksəlib. Bir sıra əsas ticarət tərəfdaşlarımızdakı valyuta qıtlığının müşahidə edilməsi fonunda isə Azərbaycanda iqtisadi artım tempinin yüksəlməsi hesabat dövrünün nəticələrini müsbət qiymətləndirməyə imkan verib.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***